# Azərbaycan-Böyük Britaniya əlaqələri yüksək səviyyədə inkişaf edir

*BP tərəfindən istismar olunan yataqlarda yeni mənbələrin kəşf ediləcəyinə ümid edirik. Bunun üçün bizim yaxşı perspektivlərimiz var. Bu, bizim ikitərəfli əlaqələrimizin, həmçinin digər ölkələrlə olan əməkdaşlığımızın mühüm hissəsidir. Biz region ölkələri, Avropa İttifaqı arasında çox nadir əməkdaşlıq formatını yaratmışıq və buna Birləşmiş Krallıq və Amerika Birləşmiş Ştatlarının hökumətləri tərəfindən güclü dəstək göstərilir.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

***Azərbaycanın uğurlu xarici siyasətinin nəticəsidir ki, bu gün aparıcı mövqeyə malik olan Avropa dövlətlərinin bir çoxu beynəlxalq münasibətlər sistemində respublikamızın tərəfdaşı kimi çıxış edir. Bu ölkələr sırasında nəinki Avropanın, eləcə də dünyanın siyasi və iqtisadi həyatında, habelə beynəlxalq münasibətlər sistemində xüsusi diqqət çəkən Böyük Britaniya mühüm yer tutur.***



Uzun müddətdir ki, Azərbaycan Böyük Britaniya tərəfindən Qafqaz və Xəzər regionunda etibarlı tərəfdaş kimi tanınıb. Digər tərəfdən, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Böyük Britaniyanın ötən illərdə ölkəmizin ərazi bütövlüyünə verdiyi dəstək Azərbaycanda yüksək qiymətləndirilib. BMT Təhlükəsizlik Şurasında Ermənistan tərəfindən Azərbaycanın işğal edilən ərazilərinin boşaldılmasını tələb edən qətnamələrin qəbulunda da Böyük Britaniyanın böyük təsiri olub. Bu ölkə, həmçinin Azərbaycanın Avropa məkanına və strukturlarına inteqrasiyasına öz dəstəyini verib.

Burada bir məqamı da xatırlatmaq istərdik. Azərbaycan–Böyük Britaniya əlaqələrinin yüksək səviyyədə inkişafının nəticəsi 44 günlük müharibə dövründə də özünü aydın göstərib. Belə ki, sentyabrın 27-də Azərbaycan və Ermənistan arasında müharibənin başlanmasından bir müddət sonra BMT-nin Təhlükəsizlik Şurasında bəzi dövlətlər Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qeyri-obyektiv, qərəzli mövqeni əks etdirən bəyanatın qəbul edilməsinə nail olmaq istəyərkən, məhz bir sıra tərəfdaşlarımızla bərabər, Britaniya da buna yol verməyib. O zaman bu ölkənin BMT TŞ-dəki daimi nümayəndəsi Barbara Vudvordun çevik və prinsipial mövqeyi ədalətin bərqərar olmasına kömək edib.

Şübhəsiz ki, bütün bu müsbət məqamlar Azərbaycanın apardığı rasional və strateji hədəflərə istiqamətlənən xarici siyasət nəticəsində reallaşıb. Prezident İlham Əliyev ötən illər ərzində Bakı və London arasında daim gələcəyə yönələn və dövlətimiz üçün həssas olan məsələlərin həllini daim diqqət mərkəzində saxlayıb.

Qeyd edək ki, Azərbaycanla Böyük Britaniya arasında siyasi-diplomatik münasibətlər 1993-cü ildə ulu öndərimiz Heydər Əliyevin ölkəmizə yenidən rəhbərliyə başlamasından sonra inkişaf mərhələsinə qədəm qoyub. 1993-cü ilin oktyabrında Azərbaycana səfərə gələn Böyük Britaniyanın dövlət naziri Duqlas Hoqq ümummilli liderin andiçmə mərasimində iştirak edib. Duqlas Hoqq Bakıda bir daha Birləşmiş Krallığın Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi saydığını vurğulayıb.

1994-cü ilin fevralında ulu öndər Heydər Əliyev Böyük Britaniyaya ilk dəfə rəsmi səfər edib. Bundan bir neçə ay sonra isə bağlanan "Əsrin müqaviləsi"nə bu ölkənin BP şirkəti də qoşulub. Ümummilli liderin1998-ci ildə Böyük Britaniyaya növbəti rəsmi səfəri zamanı neft şirkətləri ilə daha üç saziş bağlanıb. Beləliklə, 1994-cü ildən başlayaraq Azərbaycan və Böyük Britaniya tərəfindən enerji sahəsində uğurlu əməkdaşlıq modeli yaradılıb.

Ümummilli lider tərəfindən uğurla inkişaf etdirilən iki ölkə arasındakı əlaqələr son 17 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə yüksək səviyyədə davam etdirilib. Dövlətimizin başçısının Böyük Britaniyaya səfəri, ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsinə xüsusi diqqət göstərməsi iki ölkə arasında əlaqələrin yeni mərhələyə qədəm qoymasına zəmin yaradıb.

Ötən dövr ərzində hər iki ölkənin enerji, neft-qaz, ticarət, investisiya, sənaye, kənd təsərrüfatı, rabitə və yüksək texnologiyalar, təhsil, mədəniyyət və turizm, ekologiya sahələrində mövcud əməkdaşlıq getdikcə möhkəmlənib, mühüm nəticələr əldə edilib.

Ölkələrimiz arasında neft-qaz sahəsində əməkdaşlıq daha genişdir. Böyük Britaniyanın BP şirkətinin neft-qaz sektorunda 7 layihədə, eləcə də Bakı–Tbilisi–Ceyhan, Cənub Qaz Dəhlizi kimi layihələrdə fəal iştirakı bunun bariz ifadəsidir.

Son illərdə hər iki ölkənin dövlət baytarlıq orqanları arasında informasiya mübadiləsinin, kənd təsərrüfatı məhsulları ticarətinin aparılmasına da mühüm önəm verilib.

BP-nin Azərbaycanın neft-qaz sektorunun inkişafı və modernləşdirilməsinə verdiyi mühüm töhfələr vasitəsilə Böyük Britaniya enerji sənayesində ölkəmizin əsas tərəfdaşıdır. BP şirkəti ilə sıx əməkdaşlıq Azərbaycanın neft strategiyasının həyata keçirilməsində başlıca rol oynayır. BP və digər şirkətlərlə birgə reallaşdırılan enerji layihələri respublikamızın iqtisadi müstəqilliyinin təməlində dayanan əsas amildir. Bütün bunlar Böyük Britaniyanın Azərbaycanın inkişafında oynadığı aparıcı roldan xəbər verir.

Bu gün Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyatın şaxələndirilməsi və dayanıqlı inkişaf siyasəti həyata keçirilir. Bu kurs iki ölkə arasında əməkdaşlığın qeyri-neft sektorunda daha da inkişafı üçün zəmin yaradır.

Neft-qaz sektorunda hasilat xərclərinin azaldılması, karbohidrogenlərin məhsuldarlığının artırılması, yeni texnologiyaların inkişaf etdirilməsi, eləcə də bərpaolunan enerji, enerji səmərəliliyi enerji əməkdaşlığının gələcək istiqamətləri kimi müəyyənləşdirilib. Ticarət və investisiya üçün daha yaxşı biznes mühitinin yaradılmasında əməkdaşlıq maraqları ifadə edilib. Sumqayıt kimya və Pirallahı sənaye parkları, dövlət-özəl tərəfdaşlığı layihələrinin reallaşdırılması isə əməkdaşlıq üçün yeni imkanlar müəyyənləşdirib.

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 9-da Böyük Britaniyanın Avropa qonşuluğu və Amerika məsələləri üzrə dövlət naziri xanım Vendi Mortonu qəbul edərkən bu barədə ətraflı danışıb. Prezident İlham Əliyev deyib: "Enerji sahəsində əməkdaşlıq bizim tərəfdaşlığımızın mühüm hissəsidir. Biz böyük layihə olan Cənub Qaz Dəhlizini tamamlamağa çox şadıq. Bilirsiniz ki, BP bizim strateji tərəfdaşımızdır. Bu şirkət Azərbaycanda həyata keçirilən əsas layihələrdə lap əvvəldən investor qismində iştirak edib. "Əsrin müqaviləsi"nin vaxtının uzadılmasından sonra bizim əməkdaşlığımız bir çox onilliklər ərzində davam edəcəkdir. Azərbaycanda qaz hasilatı ilə bağlı yeni hadisələri və keçən ilin dekabrında tamamlanmış infrastrukturu nəzərə alaraq bizim qarşımızda indi yeni imkanlar var. BP tərəfindən istismar olunan yataqlarda yeni mənbələrin kəşf ediləcəyinə ümid edirik. Bunun üçün bizim yaxşı perspektivlərimiz var. Bu, bizim ikitərəfli əlaqələrimizin, həmçinin digər ölkələrlə olan əməkdaşlığımızın mühüm hissəsidir".

Dövlətimizin başçısı daha sonra Azərbaycan tərəfindən region ölkələri, Avropa İttifaqı arasında çox nadir əməkdaşlıq formatının yaradıldığını, buna Birləşmiş Krallıq və Amerika Birləşmiş Ştatlarının hökumətləri tərəfindən güclü dəstək göstərildiyini diqqətə çatdırıb.

Azərbaycan Prezidenti Birləşmiş Krallıqdan Azərbaycana qoyulan investisiyaların ölkəmizi müasirləşdirməyə çox kömək etdiyini vurğulayaraq, 30 milyard dollar həcmində olan həmin sərmayənin əsasən enerji sektoruna yatırıldığını bildirib. Nəticədə Azərbaycan iqtisadiyyatı şaxələndirmək üçün neft-qaz satışından əldə olunan gəlirlərdən müvafiq şəkildə istifadə etmək imkanı qazanıb.

Ölkə rəhbəri çıxışında 600 Britaniya şirkətinin Azərbaycanda qeydiyyatdan keçdiyini, bunun isə iqtisadi tərəfdaşlığımızın şaxələndirilməsinin yaxşı göstəricisi olduğunu da xatırladıb. Dövlətimizin başçısı, eyni zamanda, işğaldan azad edilən ərazilərdə yenidənqurma üçün böyük potensialın mövcudluğunu, bu amil nəzərə alınaraq, artıq Britaniya şirkətləri ilə təmaslara başlanıldığını diqqətə çatdırıb: "Onlardan biri işğaldan azad edilmiş ərazilərdə şəhərsalmaya, infrastrukturun inkişaf etdirilməsinə cəlb olunub və mən ümid edirəm ki, onların sayı daha çox olacaq, çünki orada çox işlər görülməlidir. Hər şey dağılıb. Bərpa olunan enerji sahəsində böyük potensial var. Mən Britaniya şirkətlərinin bu məsələlərdə işləməyə maraq göstərdiklərini bilirəm. Çox yaxşı günəş, külək, su potensialı var. Beləliklə, biz artıq işğaldan azad edilmiş ərazilərdə gələcəyimizi planlaşdırırıq. Mən artıq bu əraziləri "yaşıl zona" ərazisi elan etmişəm. Biz insanların tələbatını ödəmək üçün külək, günəş və sudan əldə olunan enerjidən istifadə edəcəyik. Biz artıq elektrik enerjisi ixracatçısına çevrilmişik. Bu səbəbdən də bunun üçün potensial həqiqətən də çox yüksəkdir. Sözsüz ki, ölkələrimiz arasında əməkdaşlıq üçün bir çox başqa sahələr böyük əhəmiyyət kəsb edir…".

Yeri gəlmişkən, Azərbaycan Prezidenti 2030-cu ilə qədər elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılmasını hədəf kimi müəyyənləşdirib.

Dövlətimizin başçısının imzaladığı müvafiq sərəncamların icrası nəticəsində Azərbaycanda energetikanın digər sektorlarında olduğu kimi, bərpaolunan enerji mənbələrindən istifadə sahəsində də əlverişli investisiya mühiti yaradılıb, özəl sərmayələrin cəlb edilməsi, irimiqyaslı layihələrin icrası istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Qarşıdakı 10 il ərzində təqribən 1500 meqavat həcmində yeni gücün istifadəyə verilməsi nəzərdə tutulur. Bu vəzifənin məhz özəl investisiyalar hesabına reallaşdırılması planlaşdırılır.

Böyük Britaniya bərpa oluna bilən enerji sektorunda və təmiz enerji istehsalında dünya lideridir. Buna görə də bu ölkənin günəş və külək enerjisi ilə zəngin Qarabağı, eləcə də ətraf rayonları "yaşıl enerji" zonalarına çevirəcəyi heç bir şübhə doğurmur.

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***